# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
## Q Ə R A R

**“Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası”nın təsdiq edilməsi haqqında**

“Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 908-VIQD nömrəli Qanununun tətbiqi və “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2237 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 25 dekabr 2023-cü il

№ 469

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2023-cü il 25 dekabr
tarixli 469 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması

# Q A Y D A S I

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Peşə təhsili haqqında" Azərbaycan Respublikası Qanununun 4.0.19-2-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin (ümumtəhsil dərslikləri, dərs vəsaitləri və digər tədris-metodik vasitələr istisna olmaqla) tərtibi, təsdiqlənməsi və nəşri qaydasını müəyyən edir.

1.2. Peşə təhsili müəssisələri üçün ümumtəhsil dərsliklərinin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 fevral tarixli 67 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası"na uyğun olaraq həyata keçirilir.

1.3. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. tədris-metodik vasitə – tədris məqsədləri üçün istifadə olunan kağız və ya elektron daşıyıcılarda olan resurs və ya resurs dəsti;

1.3.2. açıq tədris-metodik vasitə – ödənişsiz və məhdudiyyətsiz istifadəyə icazə verilən tədris-metodik vasitə;

1.3.3. dərslik – sistemli materialları özündə ehtiva edən və təhsil proqramına (kurikuluma) daxil olan modulların tədrisi müddətində müəyyənləşdirilmiş məzmun standartlarının təhsilalanlar tərəfindən mənimsənilməsini təmin edən tədris-metodik vasitə;

1.3.4. kağız dərslik – kağız daşıyıcıda olan dərslik;

1.3.5. rəqəmsal dərslik – rəqəmli, mətnli, qrafik, audio, video və digər rəqəmsal materialların məcmusundan ibarət elektron daşıyıcıda olan və ya internet məkanında yerləşdirilmiş dərslik;

1.3.6. dərs vəsaiti – təhsil proqramına (kurikuluma) daxil olan modulların tədrisi müddətində müəyyənləşdirilmiş məzmun standartlarının təhsilalanlar tərəfindən mənimsənilməsinə yardım edən tədris-metodik vasitə;

1.3.7. qrif – peşə təhsili müəssisələrində ixtisas dərsliyinin istifadəsi üçün Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən verilən eyniləşdirmə nömrəsi.

1.4. Bu Qaydada istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

## 2. Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin tərtibi

2.1. Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin tərtibi fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə peşə təhsili müəssisələri vasitəsilə həyata keçirilir.

2.2. Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin tərtibi zamanı aşağıdakı ümumi tələblər nəzərə alınmalıdır:

2.2.1. təhsil proqramına (kurikuluma) uyğunluğu;

2.2.2. materialların elmi etibarlılığı, dəqiqliyi, inkişafyönümlülüyü, peşəyönümlülüyü, dəyəryönümlülüyü, tərbiyəyönümlülüyü;

2.2.3. nəzəri biliklərin praktiki bacarıqlarla tamamlanması və əmək bazarının tələblərinə uyğunluğu;

2.2.4.pedaqoji və metodiki yanaşmaların qabaqcıl nəzəriyyələrə, müasir tədris texnologiyalarına uyğunluğu;

2.2.5. müasir informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərinin nəzərə alınması;

2.2.6. dizayn və tərtibatın məntiqliliyi, estetikliyi və müasirliyi;

2.2.7. Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğunluğu.

2.3. Dərsliklərin bu Qaydanın 2.2-ci bəndinin tələblərinə uyğunluğuna peşə təhsili müəssisəsinin ali idarəetmə orqanında baxılır və qrifin verilməsi barədə qərar qəbul edildiyi halda bu Qaydanın 3.4-cü və 3.5-ci bəndlərinə uyğun olaraq müraciət edilir.

2.4. Nazirlik peşə təhsili sahəsində tətbiq olunan təhsil proqramlarının (kurikulumların) həyata keçirilməsini təmin etmək məqsədilə bütün ixtisaslar (modullar) üzrə açıq tədris-metodik vasitələri kimi dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin tərtibini sifariş edir.

2.5. Açıq tədris-metodik vasitələrdən əlavə olaraq dövlət peşə təhsili müəssisələrində istifadə edilməsi üçün başqa dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin müstəsna və ya qeyri-müstəsna hüquqlarının alınması yolu ilə törəmə (tərcümə, dəyişdirmə) dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin tərtibi Nazirlik tərəfindən sifariş edilir.

## 3. Peşə təhsili müəssisələrində istifadə edilməsi üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin təsdiqlənməsi

3.1. Peşə təhsili müəssisələrində istifadə edilməsi üçün dərsliklərin təsdiqlənməsi onlara qrif verilməsi yolu ilə həyata keçirilir.

3.2. Dərsliyə və onun hər bir təkmilləşdirilmiş və ya törəmə (tərcümə, dəyişdirmə) nəşrinə ayrıca qrif verilir.

3.3. Dərsliyə qrif verilməsi peşə təhsili müəssisəsinin müraciəti əsasında Nazirlik tərəfindən həyata keçirilir.

3.4. Dərsliyə qrif almaq üçün peşə təhsili müəssisəsi (bundan sonra – ərizəçi) Nazirliyin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə (bundan sonra – TMİS) qeydiyyatdan keçməklə şəxsi kabinet yaradır. Ərizəçi şəxsi kabinetdə olan məlumatları əldə edə və müraciətinin statusunu izləyə bilər.

3.5. Müraciətə aşağıdakılar elektron formada əlavə edilir:

3.5.1. dərslik;

3.5.2. dərsliyin əsaslandığı təhsil proqramı (kurikulumu);

3.5.3. dərsliyin təsdiqlənməsi üçün müraciətin edilməsi barədə təhsil müəssisəsinin ali idarəetmə orqanının qərarı;

3.5.4. dərsliyin təsdiqlənməsi barədə müvafiq ixtisas istiqaməti üzrə azı 5 (beş) il fəaliyyəti olan 2 (iki) işəgötürənin müsbət rəyi;

3.5.5. başqa əsərlərdən və mənbələrdən qeyri-qanuni istifadə hallarına yol verilməməsi barədə müəllifin (müəllif kollektivinin) notariat qaydasında təsdiq olunmuş ərizəsi.

3.6. Qrif verilməsi üçün dərsliyin qiymətləndirilməsi Nazirlik tərəfindən həyata keçirilir. Bu məqsədlə Nazirlik tərəfindən müvafiq sahədə 5 (beş) ildən artıq pedaqoji təcrübəsi və ya müvafiq ixtisas

üzrə 10 (on) il iş təcrübəsi və ya elmi dərəcəsi olan azı 3 (üç) ekspert cəlb edilir. Nazirlik tərəfindən tərcümə edilmiş dərsliklərin qiymətləndirilməsi üçün əlavə olaraq tərcüməçi də cəlb edilə bilər.

3.7. Dərsliyə qrif verilməsi üçün müraciətə 2 (iki) ay müddətində baxılır.

3.8. Dərslik 100 ballıq şkala üzrə aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

3.8.1. dərsliyin təhsil proqramına (kurikuluma) uyğunluğu (30 bal);

3.8.2. dərsliyə daxil edilmiş materialların elmi etibarlılığı, dəqiqliyi, inkişafyönümlülüyü, peşəyönümlülüyü, tərbiyəyönümlülüyü və dəyəryönümlülüyü (20 bal);

3.8.3. dərslikdə nəzəri biliklərin praktiki bacarıqlarla tamamlanması və əmək bazarının tələblərinə uyğunluğu səviyyəsi (20 bal);

3.8.4. dərslikdə nəzərdə tutulan pedaqoji və metodiki yanaşmaların qabaqcıl nəzəriyyələrə və müasir tədris texnologiyalarına uyğunluğu (10 bal);

3.8.5. dərsliyin tərtibində müasir informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərinin nəzərə alınması (10 bal);

3.8.6. dizayn və tərtibatın məntiqliliyi, estetikliyi və müasirliyi (10 bal).

3.9. Qrif verilməsi üçün dərslik qiymətləndirildiyi hər bir meyar üzrə maksimal balın ən azı 80 faizini toplamalıdır.

3.10. Qrif verilməsi üçün dərsliyin qiymətləndirilməsinin nəticəsi barədə məlumat ərizəçinin şəxsi kabinetinə göndərilir.

3.11. Dərsliyə qrif verilməsindən imtinadan ərizəçi yazılı formada (o cümlədən, elektron formada şəxsi kabineti vasitəsilə) 1 (bir) ay ərzində Nazirliyə şikayət verə bilər. Şikayət həmin dərsliyin qiymətləndirilməsində iştirak etmiş şəxslərdən ibarət tərkibdə yaradılan komissiyada ərizəçinin iştirakı ilə baxılaraq cavablandırılır.

3.12. Dərsliyə qrifin verilməsi Nazirliyin əmri ilə rəsmiləşdirilir. Qrif verilmiş dərsliyin məzmunu qrifin verildiyi tarixdən sonrakı 5 (beş) tədris ili ərzində istifadəyə yararlı hesab olunur. Qrifin verilməsi barədə əmrdə dərsliyin adı, əsaslandığı təhsil proqramı (kurikulumu) və modul, əhatə etdiyi təhsil müddəti, müəllifləri və müstəsna müəlliflik hüququnun (©) sahibi (sahibləri), kağız və ya elektron daşıyıcıda olması və qrif göstərilir.

3.13. Qrif verilməsindən imtina edilmiş dərslik təkmilləşdirildikdən sonra növbəti təqvim ilində yenidən qrif verilməsi üçün Nazirliyə təqdim edilə bilər.

3.14. Nazirlik qrif verilmiş və qrifi ləğv edilmiş dərsliklərin reyestrini aparır və onlar barədə məlumatı rəsmi saytında dərc edir.

3.15. Aşağıdakı hallarda Nazirlik dərsliyin qrifini vaxtından əvvəl ləğv edir:

3.15.1. dərsliyin əsaslandığı təhsil proqramı (kurikulumu) qüvvədən düşdükdə;

3.15.2. dərsliyin təkmilləşdirilmiş nəşrinə qrif verildikdə;

3.15.3. dərslikdə başqa əsərlərdən qeyri-qanuni istifadə (plagiat) faktı öz təsdiqini tapdıqda.

3.16. Qrif verilmiş dərsliklərdən eyni təhsil proqramını (kurikulumu) həyata keçirən peşə təhsili müəssisələrində növbəti dərs ilindən istifadə edilə bilər.

3.17. Peşə təhsili müəssisəsində istifadə edilməsi üçün dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin təsdiqlənməsi barədə qərar peşə təhsili müəssisəsinin ali idarəetmə orqanı tərəfindən qəbul edilir.

## 4. Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin nəşri

4.1. Dövlət peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin nəşri dövlət büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş vəsait hesabına, Nazirlik tərəfindən “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təşkil edilən satınalma yolu ilə həyata keçirilir.

4.2. Peşə təhsili müəssisələri üçün rəqəmsal dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin nəşri internet şəbəkəsi üzərindən həyata keçirilir.

4.3. Dövlət peşə təhsili müəssisələri üçün Nazirlik tərəfindən nəşr ediləcək kağız dərsliklərə, dərs vəsaitlərinə və digər tədris-metodik vasitələrə növbəti tədris ilində olan tələbatın proqnozu TMİS vasitəsilə təqdim edilir. Peşə təhsili müəssisələrinin rəhbərləri kağız dərsliklərə, dərs vəsaitlərinə və digər tədris-metodik vasitələrə olan tələbatla bağlı məlumatları tədris ilinin başlanılmasına 6 (altı) ay qalmış TMİS-də bu məqsədlə açılmış xüsusi bölməyə daxil edərək, elektron imzaları ilə təsdiq edirlər. Daxil edilən məlumatlar Nazirlik yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən 1 (bir) ay müddətində dəqiqləşdirilərək, elektron imzalarla təsdiq olunduqdan

sonra kağız dərsliklərə, dərs vəsaitlərinə və digər tədris-metodik vasitələrə olan tələbat proqnozu formalaşır.

4.4. Dövlət peşə təhsili müəssisələri üçün kağız dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin nəşri aşağıdakı istifadəyə yararlılıq müddətləri nəzərə alınmaqla həyata keçirilir:

4.4.1. tədris edilən ixtisaslar üçün bütün kağız dərsliklər, dərs vəsaitləri və digər tədris-metodik vasitələr – ilk buraxılışdan sonrakı beş tədris ili;

4.4.2. tədris edilən ixtisaslar üçün kağız dərslik komplektinə daxil iş dəftərləri – bir tədris ili.

4.5. Dövlət peşə təhsili müəssisələri üçün kağız dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin nəşri aşağıdakı tiraj həcmlərində təşkil edilir:

4.5.1. iş dəftərləri hər il istifadəçilərin proqnoz sayının 105 faizi həcmində;

4.5.2. dərsliklər, dərs vəsaitləri və digər tədris-metodik vasitələr istifadə müddətinin ilk ilində istifadəçilərin proqnoz sayının 105 faizi həcmində, istifadə müddətinin qalan dövründə istifadəçilərin proqnoz sayının 45 faizi həcmində birdəfəlik, yaxud illərə bölünməklə.

4.6. Dövlət peşə təhsili müəssisələri üçün Nazirlik tərəfindən nəşr edilən kağız dərsliklər, dərs vəsaitləri və digər tədris-metodik vasitələr tədris ilinin başlanılmasına 2 (iki) ay qalmış nəşr edilir və tədris ilinin başlanılmasına 15 (on beş) gün qalmış peşə təhsili müəssisələrinə onların təqdim etdiyi proqnoz tələbat əsasında çatdırılır.

4.7. Dövlət peşə təhsili müəssisələri hər bir istifadəçini tədris ili başlananadək kağız dərsliklər, dərs vəsaitləri və digər tədris-metodik vasitələr ilə təmin edirlər.

4.8. Dövlət peşə təhsili müəssisələri kağız dərslikləri, dərs vəsaitlərini və digər tədris-metodik vasitələri kitabxana fonduna daxil edirlər.

4.9. Dövlət peşə təhsili müəssisələrində qrifi qüvvədən düşmüş kağız dərsliklər və ya bu Qaydanın 4.4-cü bəndi ilə müəyyən edilən istifadəyə yararlılıq müddəti bitmiş kağız dərsliklər, dərs vəsaitləri və digər tədris-metodik vasitələr köhnəlmiş hesab olunur və kitabxana fondundan "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada çıxarılırlar.

4.10. Bu Qaydanın tələbləri nəzərə alınmaqla bələdiyyə və özəl peşə təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər

tədris-metodik vasitələrin nəşri həmin təhsil müəssisələrinin öz vəsaitləri hesabına həyata keçirilir.